*YUBİLEYLƏR*

*M.H.TƏHMASİBİN ANADAN OLMASININ 100 İLLİYİ*

# GÖRKƏMLİ FOLKLOR NƏZƏRİYYƏÇİSİ

XX yüzillik Azərbaycanın ictimai-siyasi və mədəni həyatında yeni bir mərhələnin əsasını qoydu. Milli-mənəvi və əxlaqi dəyərlərin öyrənilib üzə çıxarılmasında, xalqın zəngin şifahi yaradıcılığının toplanılıb nəşr edilməsində təzə bir dövr başladı. Əsrin əvvəllərində meydana çıxan demokratik mətbuat xalqın zəngin keçmişini, tarixini, etnoqrafiyasını və adət-ənənələrini öyrənməyə marağı artırdı. Milli mədəniyyətə və ədəbiyyata yeni baxışlar üzə çıxdı, zəngin tarixə malik ədəbiyyatımızın dövrləşdirilməsinə, təsnifinə başlandı. Onun tarixin dərinliklərinə gedən kökləri, rişələri açıqlanıb üzə çıxarıldı. Ədəbiyyatımız şifahi və yazılı qollara ayrıldı, onların ilk nəzəri əsasları öyrənilməyə başladı.

XIX əsrin birinci qərinəsindən toplanılıb üzə çıxarılan, dövrün ən aparıcı rusdilli və türkdilli mətbuatına səpələnən folklor nümunələrimizin nəzəri əsasları geniş araşdırmalara cəlb edildi. Görülən çoxcəhətli əməli işlər nəticəsində XX yüzilliyin əvvəllərində gecikmiş Azərbaycan folklorşünaslığı yarandı. Əsrin ilk onilliklərində bu folklorşünaslığın yeni mərhələyə yüksəlməsində F.Köçərlinin, Ə.Abidin, Ü.Hacıbəyovun, Ə.Haqverdiyevin, H.Zeynallının, Y.V.Çəmənzəminlinin, S.Mümtazın, V.Xuluflunun, Ə.Tahirovun və onlarla başqa ziyalıların böyük əməyi oldu. Ancaq sonrakı illərdə elm və mədəniyyətin başqa sahələri kimi, folklorşünaslığa da 37-ci il repressiyaları ağır zərbə vurdu, qazanılmış nailiyyətlərin üzərinə əsaslı şəkildə kölgə saldı. Bu ağrının acısını Azərbaycan folklorçuları da daddılar. Bu faciə onların da sırasını seyrəltdi, tanınmış, istedadlı araşdırıcıların qatarını pozdu.

Müharibə ərəfəsində Azərbaycan folklorşünaslığında böyük boşluq yarandı. Bu boşluğu doldurmaq, folklorumuzun toplanmış, əldə olan nümunələrini çeşidləyib nəşrə hazırlamaq, milli folklor nəzəri fikrini davam etdirmək ö dövrün gənc tədqiqatçılarının üzərinə düşdü. Belə ümid verən araşdırıcılardan biri də M.H.Təhmasib idi. Təsadüfi deyildi ki, 1945-ci ildə Bakıda Azərbaycan SSR Elmlər Akademiyası yarananda onun ilk əməkdaşlarından biri də M.H.Təhmasib oldu. Onun imzası bu dövrdə artıq oxuculara tanış idi. Müharibə illərində döyüşən ordunun və arxa cəbhənin qəhrəmanlıq, vətənpərvərlik duyğularının yüksəlməsində onun dastan yaradıcılığımızdan, xüsusən «Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi»dən seçib çap etdirdiyi nümunələr əsgərlərimizin dilinin əzbəri idi.

Müharibədən sonrakı illərdə M.H.Təhmasib bu işi davam etdirməklə yanaşı, yazıçılıq və ssenaristik fəaliyyətlə məşğul olmağa, Azərbaycan folkloru

materialı əsasında yeni-yeni filmlər hazırlamaq, gənc nəsli xalq həyatı, folklor qaynaqları ilə daha yaxından tanış etməyi qarşısına məqsəd qoydu. Bir-birinin ardınca yazdığı ssenarilər filmə çevrilib ekranları bəzədi.

Çoxcəhətli ədəbi fəaliyyətlə məşğul olan M.H.Təhmasib eyni zamanda folklor nəzəri fikrinin əsas daşıyıcılarından idi. O, sələflərindən miras qalmış, hələ cilalanıb yetginləşməmiş folklor nəzəri fikrini öz həmkarları ilə birlikdə davam etdirib yüksəltməli idi. Bu nəzəri fikir folklorumuzun aktual problemlərini əhatə etməli olduğu kimi, eyni zamanda Azərbaycan xalqının qədim və zəngin tarixə malik olduğunu özündə əks etdirməli idi. Bu məqsədlə M.H.Təhmasib xalqımızın mövsüm və mərasim nəğmələrinə üz tutdu. Bu kontekstdə müxtəlif dövrlərdə toplanılıb nəşr edilən folklor ünmunələrini tədqiqata cəlb etməklə şifahi poeziyamızın, mərasim folklorunun erkən ölçülərini, tarixin dərinliklərinə gedən çeşidli əski təsəvvürləri açıqlayıb ortaya qoydu. Bu tədqiqat xalqımızın tarixini saxtalaşdıranlara, onun ən qədim dövr və mərhələləri, eləcə də qüdrətli poetik yaradıcılıq ənənələri üzərinə kölgə salmaq istəyənlərə kəskin cavab idi. Yüksək vətəndaşlıq mövqeyindən yazılmış tədqiqat işi folklorşünaslığımıza yeni ab-hava gətirdi, onu yeni istiqamətli axtarışlara səmtləndirdi.

40-cı illərin ikinci yarısından başlayaraq M.H.Təhmasib mərasim folkloru ilə bağlı tədqiqatlarında xalq həyatının daha dərin köklərini araşdırmağa başladı. O, milli mifologiyamızın problemlərini tədqiqata gətirməklə Azərbaycan mifologiyası ilə bağlı ilk nəzəri mülahizələrini irəli sürdü. Xalqımızın zəngin mifoloji qaynaqlara malik olduğunu, onun öyrənilməsinin vacibliyini gündəmə gətirdi. Bu cəhətdən professorun «Əfsanəvi quşlar» və «Azərbaycan xalq ədəbiyyatında div surəti» məqalələrinin əhəmiyyətini xüsusi qeyd etməyə ehtiyac vardır.

Repressiyalar vahiməsinin səngiməsdiyi bir vaxtda «Əfsanəvi quşlar» məqaləsində qadağalar altında olan milli mifologiyadan söz açmaq kiçik hünər deyildi. M.H.Təhmasib bu məqalədə Zümrüd quşunun etimologiyasından çıxış edərək Azərbaycan mifologiyasının dərinliklərinə – zərdüştiliyin Ahuraməzda, əski türkün Dövlət quşu, milli mifologiyamızın Umay // Humay // Uma zənginliklərinə enir. Bu məqalə əslində M.H.Təhmasibin milli mifologiyamızı öyrənmək vacibliyini əks etdirən ən kəskin həyəcan təbili idi. Təsadüfi deyildi ki, həmin məqalədən az sonra müəllif «Azərbaycan xalq ədəbiyyatında Div surəti» məqaləsini yazdı.

M.H.Təhmasib bu dövrdə artıq tanınmış folklor nəzəriyyəçisi kimi şöhrətlənmişdi. O, rus folklorşünaslığının aparıcı nailiyyətlərini folklorşünaslığa gətirən, onu yerli folklor materialları əsasında araşdırmalara cəlb edən nəzəri cəhətdən hazırlıqlı araşdırıcılardan idi. Müəllif divlərlə bağlı yazdığı məqaləsinin əvvəlində deyirdi: «...Biz əvvəlki məqalədə «Məlikməmməd» nağılı haqqında danışmış və bunun qədim Midiya əfsanəsi ilə əlaqədar olduğunu demişdik. Əlbəttə ki, bu ümumiyyətlə nağıl növünün əsatirdən – mifologiyadan doğulmuş olduğunu iddia etmək deyildir. Ümumiyyətlə, xalq ədəbiyyatı tədqi-

qatı sahəsində xüsusi bir məktəb yaratmış olan əsatirçilərin ortaya sürdükləri bu ideya əsasən yanlışdır». Müəllif əsatirçilərin hər bir süjetdə əsatir izi axtarmaq ənənəsinə qarşı çıxmaq üçün Azərbaycan nağıllarını tədqiqata cəlb edir. Div obrazının əsatiri elementlərindən çıxış edərək onun mənşə xüsusiyyətlərini açıqlamağa çalışır. Nağıllarımızda yaşayan Div obrazlarını müqayisəli təhlilə cəlb etməklə zərdüştilik və ondan əvvəlki təsəvvürlərin şərhinə keçir və maraqlı nəticələrə gəlir. Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq nağıl materialları əsasında div obrazının ikili xarakterini açıqlayır. Zərdüştilikdən əvvəlki təsəvvürlərdəki Xeyirxah divlərlə zərdüştilik dövründəki analoji obrazlar arasındakı fərqlər üzərində dayanır, gəldiyi qənaətləri belə yekunlaşdırır: «...Divlərin əsatiri bir surət olmaq etibarı ilə, daha qədim əsatirdə (M.H.Təhmasib burada qədim türk əsatirini nəzərdə tutur – A.N.) bu günün tamamilə əksinə olaraq Xeyixahlıq qüvvəsi, hətta Günəş – İşıq və Musiqi ilahəsi» olduğunu iddia edir. Divin xeyirxah qüvvədən şər qüvvəyə çevrilməsinin mifoloji əsasını isə zərdüştiliklə bağlayır.

M.H.Təhmasib 1948-1956-cı illər arasında əsasən pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, Bakı Dövlət Universitetinin (o vaxtkı Azərbaycan Dövləi Universiteti) Ədəbiyyat tarixi kafedrasında çalışmaqla yanaşı, Elmlər Akademiyasının Dil və Ədəbiyyat institutunda işləyir. Bu dövrdə əsasən ədəbi yaradıcılıqla məşğul olan M.H.Təhmasib folklorumuzun müxtəlif janrlarının toplanılıb nəşrə hazırlanmasında, tərtib və redaktəsində də yaxından iştirak edir. Eyni zamanda «Koroğlu» dastanının yeni variantı və «Molla Nəsrəddin» lətifələri üzərində çalışır. Hər iki mətnin mükəmməl nəşrini hazırlayan folklorşünas alimin yüksək nəzəri hazırlığı «Koroğlu» və «Molla Nəsrəddin lətifələri»nin Azərbaycan xalqına məxsusluğunun qorunub saxlanmasında böyük rol oynayır. Müəllifin üzərində ciddi-cəhdlə işləyib hazırladığı «Koroğlu» otuz ildən artıq bir müddətdə oxucuların əlində mükəmməl bir nəşr kimi əldən-ələ gəzir. Məhz bu variant 60-cı illərdən başlayaraq o taylı – bu taylı Azərbaycanın aşıq repertuarına qayıdır, qüdrətli bir variant kimi şöhrətlənir. «Molla Nəsrəddin lətifələri» isə türk dünyasının otuzdan artıq elinin qəhrəmanı kimi vəsf edilsə də onların hamısı bu böyük gülüş ustasının şux zarafatlarının Azərbaycan torpağından dünyaya səpələndiyini böyük ehtiramla təsdiqləyirlər. Bunlar isə folklorçu alimin böyük ifltixar hissi ilə yad edilən xidmətlərinin nəticəsi idi.

1956-cı ildən Dil və Ədəbiyyat İnstitutunun folklor şöbəsinin rəhbərliyinə irəli çəkilən M.H.Təhmasib ömrünün sonuna qədər Azərbaycan folklorunun toplanması, nəşri işinə rəhbərlik etmiş, özünü yaxın və uzaq xaricdə yaxşı folklor nəzəriyyəçisi kimi tanıtmışdır. Onun folklor nəzəri irsində xüsusi yer tutan əsərlərindən biri də «Azərbaycan xalq dastanları (orta əsrlər)» tədqiqatıdır. Müəllifin aşıq sənətinin mənşəyi, qəhrəmanlıq və məhəbbət dastanlarının genezisi, təkamülü və inkişaf xüsusiyyətləri barədəki bu tədqiqatı öz dövrü üçün Azərbaycan folklorşünaslığında yeni hadisə idi. M.H.Təhmasib ilk dəfə

olaraq aşıq sənəti və onun mənşəyi barədəki mülahizələrini bu əsərdə ümumiləşdirməklə yanaşı, «Kitabi-Dədə Qorqud»dan başlayaraq yaranıb yayılan dastan nümunələrinin bu peşəkar ifaçılıq və improvizatorçuluq ənənəsi ilə bağlılığının tarixi, elmi-nəzəri əsaslarını işləyib hazırladı. İlk dəfə olaraq bir sıra ölçü və qəlibləri sındıraraq dastan yaradıcılığının geniş təsnifini verdi. Həmin prinsiplər əsasında zəngin məzmuna və çoxvariantlılığa malik dastanlarımızı bütövlükdə tədqiqata cəlb etdi. Burada o, dastan yaradıcılığı, onun obrazlar sistemi, Dədə Qorqud, Koroğlu, Qırat, Çənlibel, Misri qılınc, buta və onlarla bu kimi başqa məsələlərlə bağlı mülahizələrini irəli sürdü ki, onların bir çoxu bu günün özündə öz əhəmiyyətini qoruyub saxlamaqdadır. M.H.Təhmasibin «Şah İsmayıl» dastanı və Şah İsmayıl obrazı ilə bağlı mülahizələri, «Alı xan» süjetinin nağıl və dastan variantları, eləcə də ayrı-ayrı aşıqlar, onların adı ilə bağlı qoşulub düzülən dastanlar barədəki araşdırmaları folklor nəzəri fikrinin ən yaxşı nailiyyətlərindən hesab edilməlidir.

M.H.Təhmasib istər iri həcmli tədqiqat əsərlərində, istər çoxsaylı folklor nəşrlərinə yazdığı ön söz, müqəddimə, qeyd və şərhlərdə, istərsə də ömrünün son illərində yazdığı məqalələrində daim milli folklor elmi fikrini irəli aparan yenilikçi alim kimi diqqəti cəlb edir. Onun «Bir tarixi həqiqətin eposdakı izləri», «Adət, ənənə, mərasim, bayram», «Üç hadisə ilə bağlı mərasimlərimiz», «Gözəllik nəğməkarı», «Nəsimi və xalq poeziyası», «Cəfər Cabbarlı və şifahi ədəbiyyat», «Məktəb» jurnalında folklora münasibət məsələləri» və s. kimi məqalələrində yüksək intellekt, dərin məntiq, vətəndaşlıq mövqeyi özünü göstərir.

M.H.Təhmasibin qoyub getdiyi zəngin irs iyirminci yüzillikdə yaranmış cahanşümul mədəniyyətimizin solmaz bir səhifəsidir. Onu qoruyub saxlamaq, gələcək nəsillərə öz üslubunda, öz rəngində təqdim etmək, böyük elm fədaisinin xatirəsini əbədiləşdirmək qarşımızda duran vəzifələrdəndir.

*Azad NƏBİYEV*